# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri”ndə dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69; 2002, № 2, maddə 112, № 10, maddə 647; 2005, № 1, maddə 58, № 11, maddə 1069; 2013, № 7, maddə 870; 2014, № 1, maddə 64, № 2, maddə 196; 2015, № 1, maddə 69; 2016, № 8, maddə 1444; 2017, № 7, maddə 1489, № 8, maddələr 1614, 1620, № 12 (II kitab), maddə 2521; 2018, № 3, maddə 585, № 10, maddə 2168; 2019, № 1, maddə 149, № 4, maddə 760, № 7, maddə 1348, № 8, maddə 1474; 2020, № 2, maddələr 194, 218; 2021, № 4, maddə 391; 2022, № 1, maddə 82, № 3, maddə 265, № 6, maddə 682; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 23 avqust tarixli 323 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. “2202 99 190 2” alt yarımmövqeyinə aid sətrin “Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 190.2-ci maddəsində göstərilən aksizli malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun

kodları” sütununda “2202 99 190 2” rəqəmləri “2202 99 180 2” rəqəmləri ilə əvəz edilsin;

1.2. “2403 99 900 1”, “2403 99 900 2” və “2403 99 900 4” alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2404 11 000 0 | alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar | 1000 ədəd üçün 14 manat |
| 2404 12 000 1<br>2404 19 000 1 | elektron siqaretlər üçün maye | 1 litr üçün 100,0 manat |
| 2404 12 000 2<br>2404 19 000 2 | birdəfəlik istifadə olunan elektron siqaret, qəlyan və onların əvəzediciləri | 1 ədəd üçün 0,25 manat |

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 27 sentyabr 2022-ci il

№ 373